Yenilənmişdir: Mart 2026

# Muzdlu əmək fəaliyyəti - məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Muzdlu əmək fəaliyyəti üçün viza almaqdan ötrü iş icazəsi tələb olunur. Bu iş icazəsi zəruri olan bütün şərtlərə cavab verildiyi halda viza ilə birlikdə verilir. İşəgötürəniniz istədiyiniz fəaliyyət üçün Federal Məşğulluq Agentliyindən (Bundesagentur für Arbeit) əvvəlcədən razılıq ala bilər. Viza üçün müraciət edərkən erkən razılığın təqdim edilməsi sonrakı viza prosesini sürətləndirir. İş icazəsinin verilməsi „Məşğulluq haqqında Qaydaya“ (Beschäftigungsverordnung) əsasən tənzimlənir. Almaniyada xarici vətəndaşlar yalnız bu Qaydada tənzimlənən fəaliyyətlərlə muzdlu kimi məşğul ola bilərlər.

Əgər Siz alman və ya tanınmış xarici yaxud alman ali təhsili ilə müqayisə oluna bilən xarici ali təhsil diplomuna maliksinizsə və vergiyə cəlb edilən əmək haqqınız 4.225 €/ayda məbləğində yaxud daha artıqdırsa xahiş edirik "Aİ-nın Göy Kartı"na dair bizim məlumat vərəqəmizə diqqət yetirin. Həkimlər, İT-mütəxəssisləri, təbiət elmləri üzrə alimlər, riyaziyyatçılar və mühəndislər və bu kimi peşəyə sahib olan şəxslər üçün vergiyə cəlb edilən əmək haqqı 3.827,85 €/ ayda məbləğində olmalıdır.

Muzdlu əmək fəaliyyəti üçün milli viza almaqdan ötrü bütün lazımi sənədləri **yalnız Almaniyanın Federal Xarici İşlər Nazirliyinin internet portalına** göndərməklə onlayn şəkildə müraciət etmək olar. Səfirlik onlayn-prosesi çərçivəsində kənar viza xidməti olan TLScontact şirkəti ilə işləyir. Almaniyanın Federal Xarici İşlər Nazirliyinin internet portal hesabına əlavə olaraq göstərilən linkdən TLScontact platformasında da hesab yaradın: https://visas-de.tlscontact.com/en-us/registration?issuerId=azBAK2de. TLScontact şirkəti sənədlərinizin tamlığını onlayn şəkildə yoxlayır. Bütün sənədlər hazır olduqda, Sizin üçün ən yaxın viza dəstəyi üçün xidmət şirkətində (VXŞ) görüş təyin olunacaqdır. Orada barmaq iziniz alınacaq və Siz viza rüsumunu da ödəyəcəksiniz. Bundan sonra ərizəniz Almaniya Səfirliyinə göndəriləcək. Viza müraciətinizlə bağlı qərar viza xidməti şirkəti tərəfindən deyil, səfirlik tərəfindən verilir. İstənilən vaxt internet portal vasitəsilə ərizənizin işlənmə mərhələsini izləyə bilərsiniz.

İnternat portal vasitəsi ilə müraciət etmək üçün bu keçiddən istifadə edə bilərsiniz:

- Almaniyada tanınan və ya alman təhsilinə ekvivalent ali təhsilinə malik şəxslərin məşğulluğu: https://digital.diplo.de/arbeitsaufnahme-akademiker
- Alman peşə təhsilinə bərabər tutulan ixtisaslara malik şəxslərin məşğulluğu: https://digital.diplo.de/arbeitsaufnahme-ausbildungsberuf
- Son beş il ərzində öz peşə sahələrində ən azı iki il işlədiyini sübut etmək şərti ilə təhsil aldıqları ölkədə tanınan ixtisasa malik peşə təcrübəli əcnəbilərin məşğulluğu: https://digital.diplo.de/arbeitsaufnahme-berufserfahrung

Sənədlərə baxılma müddəti orta hesabla 2-12 həftədir.

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

| **Viza ərizəsi üçün sənədlərin siyahısı**<br>Hər bir müraciət üçün aşağıdakı sənədlər tam şəkildə təqdim edilməlidir. |
|---|
| ☐ Xarici pasport ən az 2 boş səhifəsi olmaqla (xarici pasportun şəkil olan səhifəsi və əvvəlki vizalar, möhürlər və qeydlər olan səhifələrin 1ədəd surəti) |
| ☐ Şəxsiyyət vəsiqəsi və ya Azərbaycan vətəndaşlığı olmayan şəxslər üçün etibarlı olan " Azərbaycanda yaşamaq icazəsi " sənədi *(əsli + 1 ədəd surəti)* |
| ☐ 1 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması |

☐ 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı)

☐ Viza rüsumu (milli viza üçün müraciət etməyə dair ümumi məlumatlara bax)

☐ Doldurulmuş “Məşğuliyyət münasibətlərinə dair bəyanat” anketi (işəgötürən tərəfindən doldurulmalıdır - *əsli + 1 ədəd surəti*)

☐ “Yaşamaq haqqında Qanun”un mad.18, bənd 2, abzas 4a (§ 18 Abs. 2 Nr. 4a AufenthG) uyğun olaraq imzalanmış təlimat - dəqiq iş yeri təklifi haqqında təsdiqin təqdim edilməsi

☐ müəyyən şərtlər altında – „Məşğulluq haqqında Qaydaların“ 36-cı maddəsinin 3-cü bəndinə uyğun olaraq Federal Məşğulluq Agentliyinin öncədən razılığı (Vorabzustimmung der Bundesagentur für Arbeit)

☐ Tibbi sığorta:
Alman icbari tibbi sığorta şirkətinin ölkəyə daxil olduğunuz tarixdən etibarən tibbi sığorta təminatının qüvvədə olduğunun aydın .şəkildə təsdiq edildiyi arayışı
**və ya**
özəl tibbi sığorta şirkətinin ölkəyə daxil olduğunuz tarixdən etibarən tibbi sığorta təminatının qüvvədə olduğunun aydın .şəkildə təsdiq edildiyi arayışı. Bu özəl sığortanın növ və xidmətlərinin icbari tibbi sığortanın əhatə etdiyi növ və xidmətlərə uyğun olması şərti ilə.
**və ya**
ölkəyə giriş və məcburi sosial sığortası olan əmək fəaliyyətinə başlayana qədər olan vaxt aralığı üçün “İncoming” tibbi sığortası. Bu özəl sığortanın növ və xidmətlərinin icbari tibbi sığortanın əhatə etdiyi növ və xidmətlərə uyğun olması şərti ilə.

## Ali təhsilli mütəxəssislər üçün

☐ Almaniyanın müvafiq idarəsi tərəfindən tanınmış ali məktəb diplomu (əsasən diploma əlavəni təqdim etməyə ehtiyac yoxdur) (*əsli – Apostil və alman dilinə tərcümə olunmuş + 1 ədəd surəti*): Sizin xaricdə aldığınız ali təhsilinizin tanınıb-tanınmamasını və ekvivalentliyini öyrənmək üçün „Anabin“ məlumat bankından istifadə edə bilərsiniz

☐ Əgər Sizin ali təhsiliniz „uyğun“ və ali məktəbiniz H+ kimi dəyərləndirilibsə: Bu halda məlumat bankının məlumatını çap edin; xahiş olunur, **hər iki** məlumatın təsdiqini əlavə edin **yaxud**

☐ Əgər Siz öz ali təhsilinizin və ya təhsil ocağınızın adını tapa bilmirsinizsə: Bu halda diplomunuzu ZAB (Zentralstelle für ausländisches Bildungswesen) tərəfindən dəyərləndirilməsi üçün həmin idarəyə göndərin **yaxud**

☐ Əgər Sizin təhsil qurumunuz H+/- kimi dəyərləndirilib və ya Anabin-də qeyd olunmayıbsa: Bu halda diplomunuz ZAB (Zentralstelle für ausländisches Bildungswesen) tərəfindən dəyərləndirilməlidir.

## Peşə təhsilinə malik mütəxəssislər üçün

☐ Alman peşə təhsili haqqında sənəd *(əsli və 1 ədəd surəti)* ***yaxud***

☐ Xarici peşə təhsili haqqında sənəd (*əsli – Apostil və alman dilinə tərcümə olunmuş + 1 ədəd surəti*) və bu təhsilin alman peşə təhsilinə bərabər tutulması barədə diplomların tanınması üzrə idarənin (Anerkennungsstelle) bildirişi *(əsli və 1 ədəd surəti)*

## Peşə təcrübəsi ilə əmək fəaliyyəti

☐ Almaniyada davam etdirmək istədiyiniz peşə üzrə son beş ildə əldə etdiyiniz ən azı iki illik peşə təcrübəsinin təsdiqi (məsələn, notarial qaydada alman dilinə tərcümə-təsdiq edilmiş əmək kitabçasını təqdim etməklə *(əsli və 1ədəd surəti)* **və**

☐ Əmək münasibətləri bəyannaməsinə əsasən ümumi (brutto) gəlir ayda ən azı 3.802,50 avro.

**Aşağıdakı ixtisaslardan birinin təsdiqi:**

☐ Əldə edilməsi üçün ən azı iki illik təhsil müddəti tələb olunan xarici peşə ixtisası (*əsli – Apostil və alman dilinə tərcümə olunmuş + 1 ədəd surəti*) və xarici peşə ixtisası alınan ölkədə həmin təhsilin dövlət tərəfindən tanınması barədə ZAB-dan arayış
**yaxud**

| | |
|---|---|
| ☐ | Xarici universitet təhsilinizi bitirmək haqqında sənəd (*əsli – Apostil və alman dilinə tərcümə olunmuş + 1 ədəd surəti*) və bu ali təhsilin alındığı ölkədə həmin təhsilin dövlət tərəfindən tanınması barədə ZAB-dan arayış **yaxud** |
| ☐ | xarici ölkədə alınmış peşə təhsili və bu barədə Almaniyanın Xarici Ticarət Palatası tərəfindən verilmiş diplom (*əsli – Apostil və alman dilinə tərcümə olunmuş + 1 ədəd surəti*) |
| **Tənzimlənən peşələr üçün, məsələn, həkimlər, mühəndislər, dövlət məktəb müəllimləri, əczaçılar və hüquqşünaslar** | |
| ☐ | Diplomların tanınması üçün cavabdeh idarə tərəfindən peşə fəaliyyətinə icazə **yaxud** |
| ☐ | Peşə fəaliyyəti ilə məşğullyyətə zəmanət / həkim fəaliyyəti üçün aprobasiya<br><br>Sizin yiyələndiyiniz peşənizin tənzimlənən peşələr qrupuna aid olub-olmadığını buradan öyrənə bilərsiniz. |
| **45 yaşına çatmış mətəxəssislər üçün** | |
| ☐ | Aylıq əmək haqqı 4.647,50 avrodan /illik 55.770 avrodan az olmayan peşə sahibləri və ya ahıl yaşına çatarkən müvafiq sosial təminat haqqında sənəd |

**Burada adı çəkilməyən sənədlərin ayrı-ayrı hallarda viza müraciəti proseduru zamanı əlavə olaraq təqdim edilməsi tələb edilə bilər.**